**Erhan ÇAĞLAYAN** *

# AĞQOYUNLU-OSMANLI MÜNASİBƏTLƏRİ ŞƏRƏF XAN BİDLİSİNİN "ŞƏRƏFNAMƏ" ƏSƏRİNDƏ

**Açar sözlər:** Ağqoyunlu, Osmanlı, "Şərəfnamə", diplomatiya.
**Key words:** Akkoyunlu, Ottoman, "Sherefname", diplomacy.
**Ключевые слова:** Агкоюнлу, Османлы, «Шарафнаме», дипломатия.

Şərəf xan Bidlisinin "Şərəfnamə" əsərində Azərbaycan Ağqoyunlu dövlətinin hərbi-siyasi və iqtisadi tarixi geniş şəkildə əks olunmuşdur. Əsərin ikinci cildində Ağqoyunlu dövlətinin Osmanlı dövləti ilə münasibətləri, o cümlədən Uzun Həsənin sultan II Mehmedlə münasibətləri təsvir edilmişdir. Bu məlumatları digər sinxron müəlliflərin məlumatları ilə müqayisə etməklə, Azərbaycanın XV əsr xarici siyasət tarixinin başlıca istiqamətlərini, həmçinin Ağqoyunlu-Osmanlı münasibətlərinin xarakterini müəyyən etmək mümkündür.

XIV-XV əsrlərdə Müsəlman Şərqi ilə Avropa ölkələri arasındakı əlaqələrin tarixinə ümumi nəzər yetirərsək, bu tarixin Papanın rəhbərliyində Avropa ölkələrinin Osmanlılara qarşı dəfələrcə düzənlədiyi xaçlı səfərləri ilə xarakterizə olunduğunu deyə bilərik. Bizans imperiyasının mülklərinin sürətli bir şəkildə Osmanlı dövlətinin hakimiyyəti altına keçməsi, ardından Avropa qitəsinin İslam coğrafiyasına qatılması imkanlarını genişləndirmişdi. Avropanın tam ortasında bir müsəlman dövlətinin yaranması və genişlənməsi xristian dövlətləri üçün qəbuledilməz hal idi. Qitədə hegemonluq uğrunda öz aralarında mübarizənin davam etdiyi bir zamanda "hostis naturale" (*lat.* "təbii düşmən") olaraq gördükləri Osmanlı türklərinin bu qədər qalibiyyətli bir şəkildə irəliləməsi xaçlı səfərlərinin yenidən canlanmasına səbəb olmuşdu. 1396-cı il Niğbolu, 1444-cü il Varna, 1448-ci il İkinci Kosova və nəhayət, 1453-cü il İstanbul səfərləri hər dəfəsində xaçlıların ağır məğlubiyyəti, Osmanlıların isə böyük qələbəsi ilə başa çatmışdır (6, s.147).

Osmanlı sultanı II Mehmedin (1451-1481) 29 may 1453-cü ildə İstanbulu fəth etməsi və onu dövlətinin baş şəhəri seçməsi ilə Avropa gücləri bu Türk-İslam dövlətinin qısa müddətli bir təhlükə olmadığını, qitə üçün çox ağır nəticələr doğuracaq bir siyasətə sahib olduğunu anladılar. Roma papası V Nikolay (1447-1455) 1453-cü il sentyabrın 30-da verdiyi xüsusi bullası ilə xrsitan hökmdarlara müraciət edərək katolik dünyasını "kafirlər"ə (türklərə) qarşı yeni xaçlı səfərinə başlamağa çağırdı. Bunun ardınca İtaliyada sülhü təmin etmək üçün Papanın təşəbbüsü və liderliyi xüsusi ittifaq düzənləndi (8, s.100-101). 1461-ci ildə, papa II Piyin dövründə (1458-1464) Osmanlı dövlətinə qarşı xaçlı səfəri təşkil etmək üçün xüsusi kardinallar komitəsi, 1462-ci ildə isə bu səfərin maliyyələşdirilməsi üçün xüsusi xəzinə yaradıldı (8, s.102).

* **Erhan Çağlayan** - AMEA A.A.Bakıxanov adına Tarix İnsitutunun doktorantı





Lakin Avropa dövlətlərinin öz aralarındakı ixtilaflar, o cümlədən, İngiltərə və Fransa arasında 100 ill davam edən müharibənin (1337-1453) yenicə bitməsi və ardından İngiltərədə Al və Ağqızılgül müharibəsinin başlaması (1455-1485), Fransanın isə ərazi bütövlüyü uğrunda Burqundiya ilə müharibələrə (1471-1477) girməsi, Pireney yarımadasındakı xristian dövlətlərin Qranada müsəlmanlarına qarşı Rekonkistanı (718-1492) davam etdirməsi, İtaliya dövlətlərinin arasındakı lokal müharibələrin permanent şəkil alması – bütün bu ciddi amillər Roma papalarının və katolik dünyanın antiosman cəbhəsi qurmaq planlarını boşa çıxarmışdı. Roma papaları qitədə mərkəzləşmə siyasəti səbəbindən getdikcə azalan siyasi-diplomatik nüfuzlarını qaytarmaq üçün yeni bir xaçlı səfəri düzənləmək "məcburiyyətində" idilər. Bunun üçün hər cür vasitə məqsədi doğruldurdu, hətta müsəlman bir dövlət ilə ittifaq qurmaq hesabına olsa belə!

XV əsrin ikinci yarısında İslam coğrafiyasında ən güclü rəqiblər Misir məmlük dövləti, Osmanlı və Ağqoyunlu dövlətləri idi. Misir məmlük dövləti (1250-1517) ilə Osmanlılar arasında münasibətlərin xarakteri bir az fərqli idi: burada rəqabət, daha çox müsəlmanlar arasında liderlik uğrunda gedən mübarizə ilə bağlı idi. Məlumdur ki, 1258-ci ildə Bağdad monqollar tərəfindən alındıqdan sonra Qahirə müsəlmanların təkcə siyasi deyil, həm də dini mərkəzi halına gəlmişdi. Misir məmlükləri hətta Abbasi sülaləsindən olduğu iddia edilən birisini xəlifə taxtına oturtmaqla, bu hegemonluğuna bir dini-hüquqi əsas da yaratmışdı. Osmanlı bəyliyi ortaya çıxdığında (1299-cu il) Misir məmlükləri bu dövləti özlərinə ciddi təhlükə olaraq görməyib, "uc bəyliyi" (periferiya) kimi qəbul etmişdilər (14, s.29).

Lakin 1453-cü ilin 29 may tarixi sadəcə xristian dünyasını deyil, İslam dünyasını da təlatümə gətirmiş oldu. Sultan II Mehmedin böyük dövlət siyasəti, hərbi-siyasi və diplomatik gücü indi Osmanlıları Misir məmlüklərinin rəqibinə çevirmişdi. XV əsrdə ərəb dünyasının yaşamış olduğu mənəvi və sosial böhran bu rəqibi məmlük sultanları qarşısında daha da güclü edirdi. Osmanlı sultanın hər bir növbəti uğuru isə onu İslam dünyasının qəhrəmanına çevirirdi. Təsadüfi deyil ki, Pireneylərdə Rekonkista zülmünə məruz qalan müsəlmanların da bir çoxu Osmanlı dövlətində sığınacaq tapmışdı. Başqa sözlə desək, Osmanlılarla Misir məmlüklərinin arasındakı rəqabət, İslam dünyasında hegemonluq uğrunda gedən mübarizə idi.

Ağqoyunlularla rəqabətin isə konkret məqamları var idi. Əvvəlki fəsildən də gördüyümüz kimi, mənbələrə dayanan tarixçilərin əksəriyyəti Ağqoyunluların

Azərbaycanın, həmçinin, bütövlükdə Cənubi Qafqazın və Ön Asiyanın ən qədim sakinlərindən biri olduğunu göstərir (9, s.18). Ağqoyunlu tayfa ittifaqına daxil olan tayfalar bölgənin qədim məskunlarından biri olub, Şərqi Anadoluda Azərbaycan türk faktorunun güclənməsində böyük rol oynamışlar. Başqa sözlə desək, Ağqoyunlu və Osmanlı dövlətləri arasındakı rəqabətin birinci səbəbi – Şərqi Anadoludakı üstünlüyü ələ keçirmək məsələsi idi.

Ağqoyunlu-Osmanlı rəqabətinin ikinci səbəbi – Azərbaycanın Qara dəniz və Aralıq dənizinə çıxış əldə etmək planları ilə bağlı idi. Bununla əlaqədar, akad. Y.M.Mahmudov yazır ki, "Sultan II Mehmedin Avropada və Asiyada həyata keçirdiyi bir sıra işğallar Ağqoyunlu dövlətini Qara dəniz və Aralıq dənizinə çıxış yollarından məhrum etmiş, Azərbaycanın Qərb ölkələri ilə ticarət əlaqələrini məhdudlaşdırmışdı" (8, s.120-121). Osmanlı dövlətinə gəlincə, "Avropa ilə Şərq arasındakı ənənəvi karvan yollarında üstünlüyü ələ keçirməyə çalışan II Mehmedin xam ipəyin vətəni olan Azərbaycanı işğal etmək üçün Ağqoyunlu dövlətinə hücum etməsi labüd idi. Sultanın başının Avropada qarışmasından istifadə edib Şərqdə qüdrətli hərbi-siyasi qüvvəyə çevrilən Ağqoyunlu dövləti Türkiyənin arxasında qaldıqca Osmannlı imperiyasının Avropadakı qələbələri möhkəm ola bilməzdi" (8, s.121).

Hesab edirik ki, Ağqoyunlu-Osmanlı rəqabətinin güclənməsində və hərbi əməliyyatların qızışmasında Trabzon məsələsi də az rol oynamamışdır. Belə ki, 1453-cü ildə İstanbulun Osmanlı türkləri tərəfindən alınmasından sonra Bizansın son qalıqları Trapezundda (Trabzon) toplanmışdı. "Öz müstəqilliyini qorumaq iqtidarında olmayan Trabzon imperatorları Ağqoyunlularla, bu sülalə hələ Azərbaycanda hakimiyyəti ələ keçirməzdən əvvəl ... dostluq əlaqələsi yaratmışdılar. Sülalə qohumluğu bu əlaqəni daha da möhkəmləndirmişdi. Ağqoyunlu Tur Alı bəyin oğlu Qutlu bəy və Bayandurlar sülaləsinin banisi Qara Yuluk Osman bəy Trabzon imperatorlarının qızlarını almışdılar. Ağqoyunlu hökmdarı Uzun Həsən isə Trabzon imperatoru IV İohannın qızı Teodoraya evlənmişdi" (8, s.82). Trabzon 1461-ci ildə Osmanlı türkləri tərəfindən daha alınmazdan əvvəl, 1458-ci ildə Uzun Həsən diplomatı Murad bəyin başçılığı ilə İstanbula heyət göndərmiş, "xanımı Despinaya (Teodoraya) atası tərəfindən cehiz verilən Kappodokiya və ətrafındakı torpaqları ona geri verməsini tələb etmişdi" (3, s.23). Başqa sözlə desək, Ağqoyunluların Trabzon torpaqlarına "hüquqi əsas" olaraq gördükləri iddiaları da Osmanlılarlar münasibətlərini gərginləşdirən məqamlardan idi.

Hərçənd ki, ilk mərhələlərdə bu münasibətlərin gərginliyi o qədər də özünü büruzə verməmişdi; hətta bu sülalələrin eyni kökdən – türk kökündən olmaları səbəbilə aralarındakı münasibətlərin qarşılıqlı anlaşma şəklində olması da ədəbiyyatda əksini tapmışdır. Belə ki, Ş.Fərzəliyev yazır ki, "I Sultan Məhəmmədin





Qara Osmana göndərdiyi məktubda deyilir ki, "biz sizlərdən bu son vaxtlarda dostluq və xeyirxahlıqdan başqa bir şey görməmişik, buna görə də, özünüzə təsəlli verin, özünüzü bizim dostumuz sanın". Ağqoyunlu tayfa ittifaqının başçısı Qara Osmanın vəfatından sonra (1435) hakimiyyət onun böyük oğlu Əlibəyin əlinə keçdi. O da, öz atasının siyasətini davam etdirir, Osmanlı sarayına vaxtaşırı məktublar yollayırdı. Yeni Osmanlı hökmdarı II Sultan Murad da onu cavabsız qoymur, öz məsləhətlərini çatdırırdı. Osmanlı sultanı Ağqoyunlu Əlibəyin ixlasla (məhəbbətlə) yazdığı bir məktubdan ("özümüzü o həsrətin mülazimi etmək istərdik") razı qaldığını bildirmiş, gələcəkdə onun hər hansı niyyəti, məqsədi olarsa, Osmanlı dövləti tərəfindən yerinə yetiriləcəyini xüsusi qeyd etmişdi. Hətta sultan ona yazmışdı ki, "öz qasidi vasitəsilə göndərdiyi layiqli xalatı can sağlığı ilə geyinsin, sədaqət qapılarını açsın ki, həmişə şahanə layiq görülmüşdür". Qara Osmanın başqa övladları da (Həmzə bəy, Cahangir) II Sultan Muradla yazışırdılar. Həmzə bəy hətta Osmanlı sultanına bir qoşun başçısı kimi də bəzi xidmətlər göstərir, sultanın mənafeyini dəfi üçün Ağqoyunlu qoşununun yollanmasını və beləliklə də qələbə əldə edilməsini təfsilatı ilə xəbər verir. "İndi siz əmr edin, mən qalanı kimə məsləhət bilsəniz ona da verim", yazan Həmzə bəyə cavab məktubunda Sultan Murad Ərzincandakı qələbənin onu sevindirdiyini bildirib qeyd edir ki, o yerlərdə bundan sonra əmin-amanlıq olacaq, tacirlər və karvanlar rahat gediş-gəliş edəcəklər. Atası Əlibəydən sonra Ağqoyunlu tayfa ittifaqının başçısı olan Cahangir Ağqoyunlu da II Sultan Muradla əlaqə saxlayırdı. Atası kimi o da özünün türk sultanının "mülazimi" olduğunu bildirir, "bizim məmləkətimiz də elə sizindir və bu da ev ilə o ev birdir" kimi cümlələr yazmaqla ona öz səmimi münasibətini bildirirdi" (3, s.21-22).

Amma zahiri dostluq və anlaşma özəlliyində olan bu münasibətlər tezliklə Ağqoyunlu-Osmanlı rəqabətinin kölgəsində qaldı və yuxarıda nəzərdən keçirdiyimiz səbəblərdən dolayı yaranan gərginlik sürətlə böyüyərək hərbi əməliyyatlarla nəticələndi. İki türk dövləti arasında müharibə əvvəlcə bir-birinin hərəkətini məhdudlaşdırmaq məqsədi daşıyan fəthlərlə başladı. Belə ki, Osmanlı sultanı II Mehmedin Qara dəniz sahili boyu hərbi fəallığı Ağqoyunlu Uzun Həsənin Trabzon mülkləri ilə bağlı qayğılarını artırmış oldu. Şərəf xan Bidlisi bu fəthlər haqqında aşağıdakıları yazır: "865-ci (1460/61-ci miladi) ildə Sultan Mehmed xan Qızıl Əhməd bəyin vilayətini ələ keçirmək məqsədilə birini göndərdi. Kastamonu, Sinop, Trabzon, Qoyunlu Hisar (Qoyluhisar – E.Ç.), Midilli və Yayça qalaları dövlətin idarəçiliyi altına keçdi" (12, s.109). Əslində bu ərəfədə (1460-cı ilin baharında) Ağqoyunlu hakimiyyətinə keçmiş olan Qoyluhisar "Trabzon yolu üzərində əlverişli strateji məntəqə" idi, amma Uzun Həsənin süvariləri "odlu silahlara malik olan nizami Osmanlı qüvvələrinin hücumunu dəf edə bilmədilər"

(8, s.83). Daha sonra sultan Mehmedin qoşunları Ağqoyunluları neytrallaşdırmaq üçün Ərzincan istiqamətində hücumu davam etdirdilər (8, s.83). Hərçənd ki, bəzi Türkiyə tarixçiləri Ərzincan əməliyyatının başlıca hədəfinin Uzun Həsən deyil, Trabzon olduğunu göstərirlər (bax: 10, s.310).

Ağqoyunluların hərbi baxımdan Osmanlılara güclü müqavimət göstərə bilməməsi səbəbləri üzərində dayanan akad. Y.M.Mahmudov yazır ki, "bu zaman paytaxtı Diyarbəkir olan kiçik Ağqoyunlu dövlətinin xarici siyasi vəziyyəti son dərəcə gərgin idi. Şərqdən bu dövləti ənənəvi rəqibi olan Qaraqoyunlular təqib edirdi. Qaraqoyunlu dövləti həm də Osmanlılarla və Teymuri Əbu Səidlə ittifaqda idi" (8, s.83-84; həmçinin bax: 10, s.311). 1461-ci ildə Trabzonun Osmanlılar tərəfindən alınması isə Ağqoyunlu dövləti üçün həm hərbi-siyasi, həm iqtisadi baxımdan böyük bir zərbə idi. Belə ki, Trabzonun ələ keçirilməsi ilə Uzun Həsən "nəinki öz müttəfiqini itirdi, habelə Qara dənizə olan yeganə çıxış yolundan da məhrum oldu" (10, s.313; həmçinin bax: 8, s.85).

Ağqoyunlu dövləti ilə Osmanlılar arasında növbəti gərginlik Qaraman məsələsi ilə bağlı ortaya çıxdı. Qaraman həm Ağqoyunlular üçün, həm də Osmanlılar üçün stratehi əhəmiyyətə malik bir bölgə idi. Akad. Y.M.Mahmudovun yazdığı kimi, "Trabzonun süqutundan sonra Qara dəniz ticarətindən məhrum olan, Türkiyə bazarlarında isə II Mehmedin ağır gömrük siyasəti ilə sıxışdırılan Azərbaycan tacirləri öz ipəklərini Suriya şəhərlərinə və Qaramana gətirirdilər. Qaraman Azərbaycanın Avropa ölkələri ilə ticarət əlaqəsi saxladığı mühüm məntəqə idi" (8, s.85).

Ağqoyunlular üçün onun əhəmiyyəti Aralıq dənizinə yeganə çıxış yolu olması ilə bağlı idisə, Osmanlılar üçün Qaramanın tutulması həm Ağqoyunluların dənizə çıxış yolunun bağlanması, həm də illərcə Avropa dövlətləri ilə (Venesiya, Neapol, Papalıq, Kipr, Rodos xaçlı dövləti) antiosman ittifaqında olan bir bəyliyin üzərində nəzarət demək idi. Şərəf xan Bidlisi yazır ki, "869-cu (1464/65-ci miladi) ildə Qaramanoğlu İbrahim bəy vəfat etdi. Oğulları İshaq bəy və Pir Əhməd Sultan Mehmed xanın yanına gəldilər. Atalarının hakimiyyəti onlara verildi. Hər iki qardaş Ərmənəkdə qarşı-qarşıya gəlib savaşdı və İshaq bəy məğlubiyyətə uğrayınca Diyarbəkir valisi Uzun Həsən bəyin yanına getdi. Pir Əhməd bəy isə Qaramanda tək başına iqtidara gəldi" (12, s.110). Göründüyü kimi, Qaramanda hakimiyyət uğrunda gedən mübarizəyə həm Ağqoyunlu Uzun Həsən, həm də Osmanlı sultanı II Mehmed qatıldı, bu mübarizə 1464-cü ildə Osmanlı sultanının dəstəyini alan Pir Əhmədin qələbəsi ilə başa çatdı.

Lakin bundan sonrakı hadisələr Qaramanın antiosman cəbhəsində əvvəllər oynadığı rolu unutmadığını göstərdi. Belə ki, Şərəf xan Bidlisinin də yazdığı kimi, "873-cü (1468/69-cu miladi) ildə (Osmanlı sultanının yardımı ilə hakimiyyətə gəlmiş – E.Ç.) Qaramanoğlu Pir Əhməd bəy Rum hakimi Sultan Mehmed xana qarşı üsyan etdi və sultan onun vilayətini (Qaramanı), əyalət və bəylərbəylik olaraq Sultan Mustafaya verdi" (12, s.113). Beləliklə, 1468-ci ildə Osmanlı dövləti Qaraman bəyliyinin böyük bir hissəsini ələ keçirərək Ağqoyunluları həm Aralıq dənizinə çıxışdan, həm də antiosman cəbhəsinin fəal üzvlərindən birindən məhrum etmiş oldu; Uzun Həsənin anası "Sara Xatunun Qaraman torpağını keçmiş hakimlərinə qaytarmaq üçün Türkiyə sultanı ilə apardığı danışıqlar da faydasız oldu" (8, s.87).





Qeyd edək ki, istər Trabzon, istərsə də Qaraman məsələləri Ağqoyunlu-Osmanlı müharibəsini yaxınlaşdıran, Avropa dövlətlərinin antiosman cəbhəsini şərqə doğru genişləndirmək planlarını sürətləndirən amillər oldu. Akad. Y.M.Mahmudovun və prof. T.Nəcəflinin apardıqları dövrləşdirməyə görə, Ağqoyunluların Azərbaycanda hakimiyyətə gəlməsi və Teymuri Əbu Səid üzərində qələbəsindən (1469) sonra Ağqoyunlu-Osmanlı münasibətlərinin ikinci mərhələsi başlamış olur (bax: 8, s.88, 90-91; 10, s.305, 315). Həqiqətən də, 1469-cu ilin əvvəllərinədək nəzərdən keçirdiyimiz tarixi hadisələrə də diqqət etdiyimizdə, Osmanlı məsələsi Ağqoyunlu dövlətinin xarici siyasətində daha çox fraqmentar xarakter daşıdığı, sonrakı mərhələdə isə birinci dərəcəli əhəmiyyət kəsb etdiyini görürük. Uzun Həsən 1464-1469-cu illər ərzində rəqiblərini məğlub edərək "tərkibinə Kürdən cənubdakı Azərbaycan torpaqları (Ərdəbil mahalından başqa), Qərbi İran, İraq, Qərbi Azərbaycan ərazisi, Şərqi Anadolu, o cümlədən Diyarbəkir mahalı, ayrı-ayrı vaxtlarda Şimal-Şərqi Gürcüstan və b. yerlərin daxil olduğu geniş ərazili dövlət yaratdı ... Osmanlı imperiyasını məğlub edib ölkənin beynəlxalq ticarət əlaqələrini sahmana salmaq Ağqoyunlu dövlətinin xarici siyasətinin baş məsələsinə çevrildi" (8, s.116-117).

Ağqoyunlu-Osmanlı münasibətlərinin ikinci mərhələsini araşdırarkən, Uzun Həsənin Avropa siyasətinə yer verməyimiz vacibdir, çünki Ağqoyunluların Osmanlı dövləti ilə münasibətləri Avropa dövlətlərinin antiosman cəbhəsi qurmaq siyasəti ilə çulğaşmışdı. Bölmənin əvvəlində də dediyimiz kimi, XV əsrin beynəlxalq münasibətllərinin şərq cəbhəsi Osmanlı dövlətinə qarşı xaçlı səfərlərinin düzənlənməsi ilə xarakterizə olunur. Öz aralarındakı ixtilaflar səbəbilə Avropa dövlətlərinin müsəlman Şərqində müttəfiqə ehtiyacları var idi: bu bir tərəfdən, Osmanlı dövlətinin qüvvələrini ikiyə parçalamaq məqsədi daşıyırdısa, ikinci tərəfdən, orta əsr xristian dünyasının İslam dünyasında böyük təfriqə yaratmaq planının da tərkib hissəsi idi. Təsadüfi deyil ki, Türkiyə tarixçisi B.B.Sidqi XV-XVI əsrlərdə "Osmanlı dövlətinin Asiyadakı və Avropadakı düşmənlərini müqayisə edərək belə nəticəyə gəlir ki, şərqdəki rəqiblər Türkiyə üçün daha təhlükəli olmuşdur; şərqdən gələn üç təhlükə - Əmir Teymurun hücumu, Uzun Həsən və

Şah İsmayılın hərbi qüvvələri Osmanlı dövlətini büsbütün aradan qaldırmaq və ya o zamanlar Kiçik Asiyada mövcud olan xırda, asılı feodal bəylikləri dərəcəsinə endirmək məqsədi daşıyırdı" (bax: 8, s.122).

Maraqlıdır ki, orta əsr müsəlman mənbələrində, o cümlədən araşdırdığımız "Şərəfnamə"də Ağqoyunluların Osmanlılara qarşı apardığı mübarizədə Avropa dövlətləri ilə ittifaqı məsələsi çox zəif əks olunmuşdur. Bu mənbələrin tam əksinə, Avropa mənbələrində Ağqoyunlu Uzun Həsənin dövlətinin antiosman cəbhəsində iştirakı məsələləri çox geniş təsvir edilmişdir. Bunun iki səbəbi ola bilərdi: birincisi, iki türk müsəlman dövləti arasındakı rəqabət müsəlman müəllifləri tərəfindən düşmənçilik deyil, daha çox İslam coğrafiyasında liderlik uğrunda mübarizə kimi qəbul edildiyi üçün, Uzun Həsənini Avropa dövlətləri ilə diplomatik əlaqələri onların diqqətini çəkməmişdir. İkincisi, yuxarıda da qeyd etdiyimiz kimi, "təbii düşmən" olaraq görülən Osmanlılara qarşı mübarizə xristian dünyası üçün o qədər əhəmiyyətli olmuşdur ki, müsəlman dövlətləri öz tərəflərinə çəkmələri Avropa müəllifləri üçün fövqəladə bir hal olmuşdur; və elə bu səbəbdən də, Ağqoyunlu dövlətinin təkcə hərbi-siyasi deyil, iqtisadi, mədəni, sosial həyatı, hətta Uzun Həsənin sağlıq durumu belə bu müəlliflərin əsərində əksini tapmışdır.

Əslində hadisələrin sonrakı gedişatı da göstərir ki, Avropa müəllifləri (səyyahları, diplomatları, missionerləri) müsəlman Şərqinin iki böyük dövlətindən biri olan Ağqoyunlu dövlətinə bu qədər yer vermələri, diplomatlarının isə cidd-cəhdlə onu öz tərəflərinə çəkmələri boşuna deyilmiş. XV-XII əsrlərdə xaçlı səfərləri zamanında olduğu kimi, XV əsrdə də Avropa dövlətlərinin bir bayraq altında birləşə bilmə potensialı müsəlman dövlətlərinkindən daha yüksək olmuşdur.

Uzun Həsənin Osmanlı dövlətinə qarşı apardığı mübarizəni daha detallı şəkildə anlamaq üçün Ağqoyunlu-Osmanlı müharibəsi (1472-1473) ərəfəsində Avropa dövlətlərinin xarici siyasətlərinə nəzər yetirək: Konstantinopolun fəthindən sonra sultan II Mehmed Osmanlı dövlətinə qarşı böyük bir cəbhə qura biləcək potensial düşmənini – Venesiya respublikasını mümkün olduğu qədər neytrallaşdırmağa çalışmışdı. Belə ki, 1454-cü ilin aprelində imzalanan müqaviləyə görə, Osmanlı sultanı II Mehmed Venesiya tacirlərinə dövlətinin ərazisində sərbəst ticarət etmək hüququ vermişdi (8, s.99). Lakin 1459-cu ildə Serbiyanın, 1460-1461-ci illərdə isə Moreyanın və Trapezundun alınması, Naksos, Lesbos və Xios adalarının Osmanlı nəzarətinə keçməsi, 1462-1463-cü illərdə isə Valaxiyanın və Bosniyanın təslim olması Venesiyanın işğalçı planlarına zidd idi. Şərəf xan Bidlisidə müharibə ərəfəsində Osmanlı sultanının bu fəthləri öz əksini tapmışdır. "Şərəfnamə"nin müəllifi yazır ki, "867-ci (1462/63-cü miladi) ildə Eflakdakı (Valaxiya – E.Ç.) Kazıklı Voyevoda sultanın hüzuruna çağrıldı. Ancaq gəlməyi





rədd edincə İslam əsgərlərinin Eflak vilayətinə hücum etməsi əmri verildi. Kazıklı Voyevodanın məqamını isə qardaşına verdilər. Bundan əlavə, Hersek vilayəti (Hersoqovina – E.Ç.), Dırac, İzvornik qalaları və Bosniya da bu il içərisində fəth edildi" (12, s.109-110).

Bölgə uğrunda mübarizə aparan və böyük bir müstəmləkə imperiyasını qurmağa çalışan 1463-cü ilin iyulunda Venesiya respublikasının senatı 1463-cü ilin iyulunda rəsmi olaraq Osmanlı dövlətinə müharibə elan etdi (1, s.26, 28). Başlamış olan Venesiya-Osmanlı müharibəsi (1478-ci illədək davam edəcək) bu dövrün beynəlxalq münasibətlərinin ən mühüm səhifələrindən biri oldu. Bu, bir tərəfdən, Avropadakı qüvvələr nisbətini və antiosman cəbhəsinin potensial gücünü ortaya çıxardı, digər tərəfdən isə, Ağqoyunluların Osmanlı dövlətinə qarşı olan rəqabətində müharibə mərhələsinin başlanmasını sürətləndirmiş oldu.

Orta əsr Avropa mənbələrindəki məlumatlardan da bəlli olur ki, 1454-cü ildən bəri Osmanlı dövlətinin ərazisində geniş ticarət hüquqlarına sahib olan Venesiya üçün bu müharibə böyük maddi ziyan demək idi (4, s.163-164). Amma Senat bu qərarı daha çox Roma papasının göndərmiş olduğu diplomat kardinal Vissarionun təzyiqi altında vermişdir (1, s.26). Bu da o deməkdir ki, Venesiya daha XIV əsrin əvvəllərindən Osmanlılara qarşı xaçlı səfərləri düzənləyən Roma papalarının müsəlman dövlətinə qarşı potensial müttəfiqi olmuşdur. Venesiyanın 1454-cü ilin aprelində Osmanlı dövləti ilə ticarət müqaviləsini imzalaması Roma papasını bu müttəfiqdən məhrum etsə də, nəhayətində onu antiosman cəbhəsinə çəkməyə müyəssər olmuşdur.

Müharibə başladığında Venesiyanın şərqdə müsəlman dövlətlərini, o cümlədən Ağqoyunlu dövlətini ittifaqa cəlb etmək imkanları yüksək olmamışdır. Əvvəldə də dediyimiz kimi, Ağqoyunlu-Osmanlı münasibətlərinin birinci mərhələsində Osmanlı sultanı II Mehmedə qarşı ittifaq qurmaq Uzun Həsənin xarici siyasətində başlıca məsələ deyildi. Bu səbəbdən də, Venesiyanın bütün diplomatik və siyasi girişimlərinə baxmayaraq, bu mərhələdə Ağqoyunluları Osmanlılara qarşı müharibəyə cəlb etmək mümkün olmamışdı (bu barədə daha ətraflı bax: 8. s.99-116).

Lakin 1469-cu ildən sonra bu istiqamətdə hadisələr sürətlə irəliləməyə başladı: Ağqoyunlu dövlətinin Venesiya Respublikası ilə əlaqələri daha intensiv xarakter aldı, digər Avropa dövlətləri ilə sıx diplomatik əlaqələri quruldu. Osmanlı dövləti ilə müharibə ərəfəsində Uzun Həsənin göndərmiş olduğu diplomatların apardığı danışıqlarda başlıca hədəf Avropa dövlətlərindən odlu silah aimaq, sultanın hərbi qüvvələrini ikiyə parçalamaq üçün eyni anda həm qərbdən, həm şərqdən hərbi əməliyyatlara başlamaq idi. Məsələn, 1471-ci ilin fevralında Venesiyaya göndərilmiş Ağqoyunlu səfiri Murad bəyin senata təqdim etdiyi məktubda

Uzun Həsən respublikanın "hərbi dəniz qüvvələrinin Aralıq dənizindən, Ağqoyunlu süvarilərinin isə qurudan eyni zamanda hərbi əməliyyatlara başlamalırını" istəmişdi (bax: 8, s.123-124). 1471-ci ilin sentyabrında Təbrizə göndərilmiş Venesiya diplomatı Katerino Zeno ilə Uzun Həsən arasında gedən danışıqlarda da eyni məzmunlu məsələlər müzakirə edilmişdi (8, s.128-132).

Əslində, bir tərəfdən, Katerino Zenonun Təbrizdə sərgilədiyi diplomatik manevrləri və Venesiya senatının verdiyi vədlər, digər tərəfdən isə xaçlıların Aralıq dənizi bölgəsindəki yürüşləri Uzun Həsəni çox cəsarətləndirmişdi, deyə bilərik. Bunu sultan II Mehmedin Təbrizə göndərmiş olduğu elçi heyətini Uzun Həsənin qəbul etməməsi faktı da göstərir (13, s.117).

Orta əsr müəlliflərinin, o cümlədən Şərəf xan Bidlisinin yazdığına görə, Ağqoyunlu-Osmanlı müharibəsi ərəfəsində sultan II Mehmedin yeni fəthləri də baş tutmuşdu ki, bu fəthlərin də bir çoxu Ağqoyunlu Uzun Həsəni və Avropa dövlətlərini çox narahat etmişdi. Belə ki, "Şərəfnamə"nin müəllifinin yazdığına görə, "875-ci (1470/71-ci miladi) ilin əvvəllərində sultan Mehmed xan Rum vilayətində Eregli, Ağsaray, Gülek, Göyrə və Alaiyə (Alanya – E.Ç.) qalalarını ələ keçirdi" (12, s.114). Strateji əhəmiyyətli bu qalaların ələ keçirilməsi, təbii ki, antiosman cəbhəsindəki müttəfiqləri bir-birindən ayrı salmaq məqsədi də daşıyırdı.

Həm hərbi, həm diplomatik hazırlıqlardan sonra, 1472-ci ilin yazında (bəzi qaynaqlara görə, yayında) Ağqoyunlu dövləti Osmanlı dövlətinə qarşı hərbi əməliyyatlara başladı: yürüş Bidlisdən Toqata istiqamətlənmişdi (8, s.133; 10, s.323). İlk mərhələdə Ağqoyunlu qüvvələri bir-birinin ardınca qələbələr qazana bildilər. Belə ki, Toqat, Kayseri, Ağsaray, bu Aralıq dənizi sahilinə çıxaraq Avropa dövlətlərinin vəd etdikləri odlu silahı alma şansı qazandılar. Lakin nə vəd edilən silah yardımı, nə də eyni anda hərbi əməliyyatlara başlamaq planı həyata keçmədi: Venesiya müttəfiqini döyüş meydanında yalnız buraxmağı və bu yolla Osmanlı dövlətindən daha çox imtiyaz əldə etməyi üstün tutdu. Nəticədə 1472-ci ilin avqustunda Ağqoyunlu ordusu Osmanlılar tərəfindən Beyşehir gölü yaxınlığında məğlubiyyətə uğradıldı, bu mərhələdəki "hərbi əməliyyatlar Ağqoyunlu ordusu üçün uğursuzluqla başa çatdı" (10, s.323; həmçinin bax: 8, s.134; 13, s.100).

Müharibənin sonrakı mərhələsində Ağqoyunlu dövləti üçün başlıca məsələ - nə yolla olursa olsun, müttəfiqlərin vəd etdiyi odlu silahı almaq idi. Uzun Həsən hətta "Venesiyanın göndərmiş olduğu odlu silahı əldə etmək üçün Fərat çayının sağ sahilindəki məmlük torpaqlarına – Birəcikə və Hələb şəhərinə hücum edərək Suriya vasitəsilə Aralıq dənizi sahillərinə yol açmağa çalışmışdı" (10, s.324). Lakin diplomatik cəhdlər nəticəsində Osmanlı sultanı bu bölgədəki vəziyyəti öz xeyrinə dəyişməyi bacardı və Misir məmlük dövlətinə Ağqoyunludan gələn təhlükənin daha böyük olduğunu sübut etməyə nail oldu (bax: 11, s.7-8).





1473-cü ilin yazında Osmanlı ordusu İstanbuldan Ərzincan istiqamətində yürüşə başladı. Avqustun 4-də sultan II Mehmedin ordusu Malatya yaxınlığında Uzun Həsənin ordusu ilə toqquşdu və ağır məğlubiyyətə uğradı. Diqqət çəkən məqamdır ki, əməliyyatdan əvvəl Ağqoyunluları məhv etməkdə çox qərarlı olan Osmanlı sultanı Malatya məğlubiyyətindən həmən sonra Uzun Həsənin sarayına elçi göndərərək sülh istəmişdi, lakin Ağqoyunlu hökmdarı bu qələbədən cəsarətlənərək, eyni zamanda arvadı Teodoranın və sarayındakı italyan diplomatların böyük təsiri altında bu sülh təklifini də əvvəlkilər kimi rədd etmişdi (8, s.146-147; 7, s.111; 10, s.331; 11, s.12).

Osmanlı ordusunun Malatya məğlubiyyəti "Şərəfnamə"də əksini tapmasa da, sonrakı döyüş haqqında məlumat verilmişdir. Belə ki, Şərəf xan Bidlisi yazır: "Hicri 879-cu (1474/75-ci miladi) ildə Bayburt bölgəsində sultan Mehmed xan və Bayandurlu Həsən bəy arasında böyük bir döyüş meydana çıxdı. Həsən bəyin əvvəllər sultanın xidmətində olan oğlu Uğurlu bəy öldürüldü. Həsən bəyin ordusu isə məğlubiyyətə uğradıldı. Sultanın vəkilləri, qalib bir şəkildə xilafət mərkəzinə döndülər" (12, s.115). Digər mənbələrin də məlumatlarından bəlli olur ki, Malatya məğlubiyyətindən sonra sultan II Mehmed ordusunu Bayburda çəkmiş, Uzun Həsənin ordusu isə onu təqib etmişdir. Tərəflər arasında döyüş avqustun 11-də Otluqbeli (Başkənd) adlı yerdə baş vermiş, Osmanlı ordusunun qələbəsi ilə başa çatmışdır (bax: 8, s.147-148; 13, s.121-123; 11, s.13-14; 10, s.331-332). Döyüşün miqyası və insan itkisi o qədər böyük olmuşdur ki, XVII əsrin səyyahı Evliya Çələbi bu bölgəyə səfəri zamanı "bu vadidə elə bir döyük olmuş ki, indi belə çiftçilər yeri şumlayanda torpağın altından insan sümükləri tapırlar" deyə yazmışdı (15, s.83).

Şərəf xan Bidlisidə iki türk müsəlman dövləti arasındakı bu savaşın təhlili yoxdur; çox güman ki, müəllif üçün Osmanlı sultanının xristian dünyasındakı fəthləri daha diqqətçəkici olmuşdur. "Şərəfnamə"də 1470-ci illərin hadisələri təsvir olunarkən, həqiqətən, sultan II Mehmedin Avropadakı fəaliyyətləri daha geniş bir şəkildə təsvir olunduğunu görməkdəyik.

1472-1473-cü illər Ağqoyunlu-Osmanlı müharibəsinin nəticələri tarixşünaslıqda kifayət qədər təhlil edilmişdir. Biz bu nəticələri və orta əsr mənbələrindəki məlumatları ümumləşdirərək aşağıdakı mülahizələrimizi irəli sürə bilərik:

- Müsəlman Şərqinin iki böyük dövləti – Ağqoyunlu və Osmanlı dövlətləri arasındakı müharibə, əslində, Avropa mənbələrinin (əlalxüsus Venesiya diplomatlarının) mübaliğəli bir şəkildə verdikləri kimi, qəddar və geridönməsi mümkün olmayan münasibətlərin nəticəsi olmamışdır. Paraqrafın əvvəlində də dediyimiz kimi, Osmanlı-Məmlük münasibətlərindən fərqli olaraq, Ağqoyunlu-Osmanlı münasibətlərindəki ixtilafların kökü İslam dünyasındakı liderlik məsələsi ol-

mamışdır. Bu iki dövləti bir-birinə qarşı çevirən məqamlar konkret ərazi məsələləri olmuşdur;

- Ağqoyunlu dövlətinin hökmdarı Uzun Həsənin xarici siyasəti, o cümlədən Aralıq dənizi bölgəsində möhkəmlənmək cəhdləri sadəcə Osmanlı dövləti ilə məhdudlaşmamışdır. Bunu 1472-1473-cü illər müharibəsinin gedişində və sonrakı mərhələdə onun Misir məmlük dövləti ilə bağlı planları da sübut edir;

- Osmanlı sultanı II Mehmed üçün də Ağqoyunlu dövlətini məhv etmək planının olmadığını düşünürük; əks halda hərbi əməliyyatlar 1472-1473-cü illərlə yekunlaşmazdı. Osmanlı dövləti üçün qərbə doğru genişlənmək daha əhəmiyyətli idi ki, bunun da başlıca səbəbi bu coğrafiyanın xristian bayrağı altından çıxıb İslam coğrafiyasına qatılmaq istəyi idi. Ağqoyunlu dövləti ilə müharibəni davam etdirmək şərtində Osmanlının qüvvələri ikiyə bölünmək məcburiyyətində qalardı və Avropadakı fəthləri həyata keçirmək çətinləşə bilərdi.

Amma bununla yanaşı, 1472-1473-cü illər Ağqoyunlu-Osmanlı müharibəsinin hər iki dövlət üçün ağır nəticələrini də qeyd etməyi vacib bilirik. Bu müharibə həm Uzun Həsənin, həm II Mehmedin dövləti üçün hərbi və siyasi cəhətdən ağır bir zərbə idi: müharibə Ağqoyunluların Anadolu bölgəsində zəifləməsinə səbəb oldu. Digər tərəfdən, Osmanlıların hərbi gücünün iki cəbhəyə sərf olunması Avropa dövlətləri, xüsusilə Egey dənizi hövzəsində işğalçılıq planları olan Venesiya respublikasının işinə çox yaradı.

Ağqoyunlularla müharibədən sonra Osmanlı dövlətinin Avropadakı fəthlərini təsvir edən Şərəf xan Bidlisi yazır: "Hicri 882-ci (miladi 1477/78-ci) ildə sultan Mehmed xan İsgəndəriyyə qalasını böyük bir savaşla ələ keçirdi. Limnos adasını da barış yolu ilə ələ keçirdi. Yenə həmin ilin Ramazan bayramı gecəsində (1478-ci il yanvarın 6-da – E.Ç.) Bayandurlu Uzun Həsən bəy Allahın rəhmətinə qovuşdu ... Həqiqətən xalqı sevən, ədalətli bir padşah idi. Xalqın mal alımında elə bir qanunnamə vermişdi ki, indi də İraq, Fars və Azərbaycandakı sultanlar o qanunnaməni tətbiq edirlər" (12, s.115-116). Uzun Həsənin vəfatından qısa müddət sonra Venesiya Respublikası ilə Osmanlı dövləti arasında sülh danışıqları başladı. 1479-cu ilin yanvarında bağlanan Osmanlı-Venesiya sülhü həmin ilin aprelində respublika senatında təsdiqləndi (8, s.163-164). Beləliklə, Avropa diplomatiyasının antiosman cəbhəsini şərqə doğru genişlətmək planları Ağqoyunlu Uzun Həsənin vəfatı ilə pozulmuş oldu.

Uzun Həsənin vəfatından sonra Ağqoyunlu dövlətinin Osmanlılarla münasibətlərində gərginlik azalmağa və ən azından zahirən də olsa dostluq xarakteri almağa başladı (daha ətraflı bax: 2, s.1-9). Bunun səbəbləri ilk növbədə hər iki dövlətin daxilindəki problemlərlə bağlı idi. Belə ki, 1481-ci ildə sultan II Mehmedin vəfatından sonra oğulları Bəyazidlə Cem arasında taxt-tac uğrunda mübarizə başlamışdı. Osmanlı dövlətində hakimiyyət uğrunda mübarizə sultan II Bəyazidin hakimiyyətə gəlməsi ilə nəticələnsə də, Cem sultanın hakimiyyətə gəlmək üçün Avropa dövlətlərindən yardım istəmə cəhdləri uzun müddət bu təhlükəni saxlamış oldu. Digər tərəfdən, 1500-cü ildə Qaramanda Osmanlı hakimiyyətinə qarşı üsyan da sultan II Bəyazid üçün böyük problemlər yaratmışdı. Ağqoyunlu dövləti də eyni problemlərlə üz-üzə qalmışdı: Uzun Həsənin vəfatından sonra dövlətin hərbi və siyasi təməlləri sarsılmışdı. Taxt-tac uğrunda mübarizə isə səngimək bilmirdi. Bununla əlaqədar araşdırdığımız Şərəf xan Bidlisi də Ağqoyunlu taxtı uğrunda gedən mübarizə haqqında geniş bir şəkildə yazaraq sonda aşağıdakıları qeyd edir: " ... Ağqoyunluların arasına qarmaqarışıqlıq girdi və onların səltənət təməlləri dağılmağa başladı" (12, s.125).

Digər tərəfdən, həm Osmanlılar üçün, həm də Ağqoyunlular üçün yeni xarici təhlükə də ortaya çıxmışdı. Müsəlman dünyasına qarşı aparılan mübarizənin nəticəsi olaraq Avropa dövlətlərinin bir-birinin ardınca qələbələri, o cümlədən, 1481-ci ildə Otrantonun Osmanlılardan geri alınması, 1492-ci ildə isə Qranadanın Kastiliya tərəfindən işğal edilməsi və Rekonkistanın tam xristianların qələbəsi ilə başa çatması, akad. Y.M.Mahmudovun da dediyi kimi, "Qərbdə Osmanlı imperiyasına qələbə ümidini artırmışdı" (8, s.172-173). 1499-cu ildə isə Venesiya təkrar Osmanlı dövləti ilə müharibəyə başlamış, Roma papası VI Aleksandr Borcia antiosman təbliğatını gücləndirmişdi.

Ağqoyunlu dövləti üçün yaranan yeni təhlükə isə - onun torpaqlarında qızılbaş hərəkatının güclənməsi və qızılbaşların lideri İsmayıl Səfəvinin gözlənilməz hərbi uğurları idi Həm daxildə yaşanan problemlər, həm Avropa dövlətlərinin irticaçı siyasəti, həm də qızılbaş hərəkatının genişlənməsi Ağqoyunlu və Osmanlı dövlətlərini bir-birinə yaxınlaşdıran məqamlar idi. Xüsusilə sultan Yaqubun hakimiyyəti dövründə (1478-1490) hər iki dövlət arasında dostluq münasibətlərinin təməlinin qoyulduğunu dövrün mənbələri də təsdiq edir (bu barədə daha ətraflı bax: 10, s.341-351). Osmanlı tarixçisi Xoca Sadəddin Əfəndinin verdiyi məlumata görə, "Yaqub padişah qonşu hökmdarlarla dostluq əlaqələri yaratdığı üçün onun sevgisi də təmiz ürəklərdə yer tutmuşdu. O, xüsusilə Cənnəti-məkan olan Sultan Bəyazid həzrətlərinə sevgisini bildirən məktublar və elçilər göndərmişdir ..." (5, s.334).

Sonrakı illərdə, o cümlədən sultan Əlvənd Mirzənin dövründə (1498-1501) qızılbaş təhlükəsi Ağqoyunlu-Osmanlı yaxınlaşmasını daha da gücləndirmişdi. T.H.Nəcəflinin qeyd etdiyi kimi, "Ağqoyunlu sultanları ilə Osmanlı sultanı II Bəyazid yetişməkdə olan təhlükə qarşısında əski düşmənçiliyi unutmuş və birgə mübarizə aparmağı nəzərdə tutmuşlar. II Bəyazid Səfəvilərin getdikcə artan təsirinin özünə qarşı çevriləcək real bir qüvvə olduğunu yaxşı dərk edirdi" (10, s.351).

Həqiqətən də, sonrakı hadisələr göstərdi ki, yenicə ortaya çıxan qüvvə - qızılbaş hərəkatı və onun lideri İsmayıl Səfəvi gənc olmasına baxmayaraq, Osmanlı dövləti üçün böyük bir təhlükə olduğu qədər, Avropa dövlətləri üçün də potensial bir müttəfiq oldu. Ağqoyunlu-Osmanlı mübasibətlərindəki gərginlik və bu gərginliyi əvəz edən yaxınlaşmanın ardından XVI əsrin beynəlxalq münasibətlərinə güclü təsir edəcək amillərdən biri – Səfəvi-Osmanlı rəqabəti gəldi.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Between Venice and Istanbul. Edited by Davies S. and Davis J.L. Athena, ASCSA, 2007 – 260 p.
2. Erdem İ. Otlukbeli sonrası Akkoyunlular (1473-1478) // Dergipark, cilt 17, 2005, s.1-9
3. Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı İmperiyası (XV-XVI əsrlər). Bakı, "Azərbaycan Dövlət Nəşriyyatı", 1994 -200 s.
4. Goffman D. Osmanlı Dünyası ve Avrupa. 1300-1700. Çeviren Ü.Tansel. 2. Basım. İstanbul, Kitap Yayınevi, 2008 – 320 s.
5. Hoca Sadeddin Efendi. Tacü-t-tevarih. Cilt 4. Neşr. İsmet Parmaksızoğlu. Eskişehir, 1992
6. İnalcık H. Kuruluş ve İmparatorluk sürecinde Osmanlı. İstanbul, Timas Yayınları, 2011 – 304 s.
7. Kılıç R. Fatih devri (1453-1481) Osmanlı-Akkoyunlu ilişkileri // Sosyal Bilimler Enstitüsü Dergisi, Niğde, 2003, sayı 14, s.95-117
8. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı, "Təhsil", 2006 – 416 s.
9. Mahmudov Y.M. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı, "Təhsil", 2005 – 140 s.
10. Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir türk tarixşünaslığında). Bakı: "Çaşıoğlu", 2012 – 604 s.
11. Nəcəfli T.H. 1472-1473-cü illər Ağqoyunlu-Osmanlı müharibəsinin müasir Türkiyə tarixçünaslığında əksi // Tarix və gerçəklik, 2008, cild 2, s.3-22
12. Şerefhan Bitlisi. Şerefname. Cilt 2. Osmanlı – İran tarihi. Farsçadan çeviren Osman Aslanoğlu. İstanbul, "Nübihar", 2011 – 296 s.
13. Turan Ş. Fatih Mehmet – Uzun Hasan mücadelesi ve Venedik // Tarih Araştırmaları Dergisi, cilt 3, sayı 4-5, Ankara, 1965, s.63-138
14. Иванов Н.А. Османское завоевание арабских стран. 1516-1574. Издание 2-е, дополненное. Москва, «Восточная литература» РАН, 2001 – 287 с.
15. Челеби Эвлия. Книга путешествия. Вып.3. Москва, 1983






## IN THE BOOK NAMED "SHEREFNAME" WRITEN BY SHEREF HAN BITLISI AKKOYUNLU-OTTOMAN RELATIONS SUMMARY


In the book named "Şerefname" writen by Sheref Han Bitlisi the military-political and economic history of the Azerbaijani Akkoyunlu state has been extensively included. In the second volume of the book, the relations of the Akkoyunlu state with the Ottoman state and the diplomatic relations of Uzun Hasan and Sultan Mehmet II are depicted. When we compare this information with what other synchronous authors have written we can see Azerbaijan's general directions of the foreign policy of XV. Century and also see the characteristics of the Akkoyunlu-Ottoman relations.


## ОТНОШЕНИЯ АГГОЮНЛУ-ОСМАНЛЫ В СОЧИНЕНИИ «ШАРАФНАМЕ» ШАРАФ ХАНА БИДЛИСИ РЕЗЮМЕ


Сочинение Шараф хана Бидлиси «Шарафнаме» содержит широкий обзор военно-политической и экономической истории азербайджанского государства Аггоюнлу. Во втором томе этого сочинения описываются отношения государства Аггоюнлу с Османским государством, в том числе отношения Узуна Хасана с султаном Мехмедом II. Сравнивая эти данные с сообщениями других синхронных авторов, можно выявить ключевые моменты истории внешней политики Азербайджана в 15 веке, а также характер отношений государств Аггоюнлу с Османской империей.